**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əsasnamə"si təsdiq edilsin (Əlavə 1).

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Strukturu" təsdiq edilsin (Əlavə 2).

3. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları" təsdiq edilsin (Əlavə 3).

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say həddi *995* ştat vahidi müəyyən edilsin.[1]

5. "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən aşağıdakı xidmətlərin həyata keçirilməsi təmin edilsin:

5.1. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı *ilə bağlı:*[2]

5.1.1. doğumun qeydə alınması;

5.1.2. ölümün qeydə alınması;

5.1.3. nikahın qeydə alınması;

5.1.4. nikahın pozulmasının qeydə alınması;

5.1.5. övladlığa götürmənin qeydə alınması;

5.1.6. atalığın müəyyən edilməsinin qeydə alınması;

5.1.7. adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması;

5.1.8. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin (təkrar şəhadətnamələrin) verilməsi;

*5.1.9. vətəndaşlıq vəziyyəti aktlarının qeydindəki səhvlərin düzəldilməsi və onlarda dəyişiklik edilməsi, vətəndaşlıq vəziyyəti aktları qeydlərinin ləğvi, vətəndaşlıq vəziyyəti aktlarının itmiş qeydlərinin bərpası;*[3]

5.2. notariat fəaliyyəti;

5.3. şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi;

5.4. ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi;

5.5. sürücülük vəsiqələrinin dəyişdirilməsi;

5.6. məhkumluq barədə arayışların verilməsi;

*5.6-1. yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi;* [4]

5.7. daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı:

*5.7.1. mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi;*[5]

5.7.2. daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi;[6]

*5.7.3. fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi;*[7]

*5.7.4. torpaq üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışın, həmin torpaq sahəsinin planının və ölçüsünün verilməsi;*[8]

5.8. kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı;

*5.9. hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin verilməsi;*[9]

*5.10. gömrük işi sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:*[10]

*5.10.1. xarici ticarətin gömrük statistikası barədə məlumatların verilməsi;*

*5.10.2. gömrük qanunvericiliyi ilə bağlı məsləhət və məlumatların verilməsi;*

*5.11. miqrasiya sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:*

*5.11.1. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri üçün iş icazələrinin verilməsi;*

*5.11.2. şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması;*

*5.11.3. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması;*

*5.11.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması;*

*5.11.5. Azərbaycan Respublikasında yaşayan şəxslərdən Azərbaycan Respublikası vətəndaşlığına qəbul, bərpa və Azərbaycan Respublikası vətəndaşlığından çıxma məsələlərinə dair vəsatətlərin qəbul edilməsi;*

*5.11.6. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vahid Miqrasiya Məlumat Sistemindən həmin Xidmətin fəaliyyət istiqamətləri üzrə arayışların verilməsi;*

~~*5.11-1. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması;*~~[11]

~~*5.11-2. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata*~~

~~*alınması;*~~[12]

5.12. torpaq kadastrı məlumatları barədə arayışların verilməsi;

5.13. əmək pensiyalarının təyin edilməsi;

5.14. dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi;

*5.15. hərbi qeydiyyatla bağlı:* [13]

*5.15.1. yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması;*

*5.15.2. vətəndaşın hərbi qeydiyyatda olmasına dair arayışın verilməsi;*

*5.15.3. vətəndaşa müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verildiyinə dair arayışın verilməsi;*

*5.15.4. həqiqi hərbi xidmət keçmiş şəxsə hərbi xidmətkeçmə haqqında arayışın verilməsi;*

*5.15.5. vətəndaşın müddətli həqiqi hərbi xidmətdə olmasına dair arayışın verilməsi;* [14]

*5.16. xaricdə istifadə üçün nəzərdə tutulan sənədlərə dair Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən apostil verilməsi üçün sənədlərin qəbulu;*[15]

*5.17. qida təhlükəsizliyi sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:*[16]

*5.17.1. qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və müvafiq dövlət reyestrindən çıxarışın (onun dublikatının) verilməsi;*

*5.17.2. qeydiyyata alınmış subyektlərin reyestr məlumatlarında dəyişiklik edilməsi;*

*5.17.3. qida təhlükəsizliyi sertifikatının verilməsi;*

~~*5.17.4. ixrac edilən heyvanlara və heyvan mənşəli məhsullara beynəlxalq baytarlıq sertifikatının verilməsi;*~~ [17]

~~*5.17.5. idxal və istehsal edilən baytarlıq preparatlarının dövlət qeydiyyatına (təkrar qeydiyyata) alınması və bu barədə qeydiyyat şəhadətnaməsinin (təkrar qeydiyyat şəhadətnaməsinin) verilməsi;*~~

~~*5.17.6. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;*~~

~~*5.17.7. daxili karantin sertifikatının verilməsi;*~~

~~*5.17.8. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin qeydiyyata alınması və qeydiyyat (təkrar qeydiyyat) şəhadətnaməsinin verilməsi;*~~

*5.17.9. Avropa İttifaqının yeyinti məhsullarının idxalı ilə bağlı tələblərinin icrasını həyata keçirmək məqsədilə həmin ölkələrə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə müvafiq sənədlərin (məlumatların) verilməsi;*

*5.18. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi;*[18]

*5.19. konsulluq xidmətləri ilə bağlı:* [19]

*5.19.2. sənədə apostil verilməsi və sənədin leqallaşdırılması;*

*5.19.3. viza rəsmiləşdirilməsi üçün xarici ölkələrin səfirliklərinə və konsulluqlarına notanın verilməsi;*

*5.20. kənd təsərrüfatı sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:*[20]

*5.20.1. fermerlərin, təchizatçıların və tədarükçülərin, habelə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən digər subyektlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatı;*

*5.20.2. fermerlərə bitkiçilik sahəsində subsidiyaların verilməsi ilə bağlı sənədlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edilməsi üçün qəbulu.*

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, ~~Vergilər Nazirliyinə,~~ *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat* ~~*və Sənaye*~~ *Nazirliyinə, Xarici İşlər Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə,* Dövlət Gömrük Komitəsinə, Dövlət Miqrasiya Xidmətinə, *Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə,* ~~Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə,~~ *Qida Təhlükəsizliyi Agentliyinə və* Milli Arxiv İdarəsinə tapşırılsın ki:[21]

6.1. bu Fərmanın 5-ci hissəsində göstərilən xidmətlərin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin həmin mərkəzlərdə onlar üçün müəyyən etdiyi yerləri zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etsinlər;

6.2. mərkəzlərdə xidmət göstərəcək əməkdaşlarının təyinatı zamanı onların nəzakətli, məsuliyyətli, peşəkar olmaları, ünsiyyət qurmaq və izah etmək bacarıqları nəzərə alınsın.

7. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi və Xüsusi Dövlət Mühafizə Xidməti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərində xidmət göstərəcək dövlət orqanlarının informasiya sistemləri arasında əlaqələndirməni təmin etmək məqsədi ilə həmin mərkəzləri rabitə kanalları ilə təmin etsinlər.[22]

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 7-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə maliyyə vəsaitinin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

9.1. bu Fərmanın icrasına nəzarəti həyata keçirsin;

9.2. "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərə görə ödənilən dövlət rüsumlarının 30 faizinin həmin mərkəzlərin saxlanılması, mərkəzlərdə fəaliyyət göstərən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə ayrılması barədə müvafiq təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

10.1. bu Fərmanın 6-cı hissəsində qeyd edilən icra hakimiyyəti orqanları tərəfindən "ASAN xidmət" mərkəzlərində

xidmət göstərilməsi üçün həmin orqanlara əlavə ştat vahidlərinin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.2. daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların "ASAN xidmət" mərkəzlərində quraşdırılacaq xüsusi terminallar vasitəsilə real vaxt rejimində əldə edilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.3. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.4. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 sentyabr 2012-ci il
706

Azərbaycan Respublikası Prezidentinin
2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Əlavə 1**

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında

## Ə S A S N A M Ə

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (bundan sonra – Dövlət Agentliyi) Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" *və "ASAN Kommunal"* mərkəzlərinin (bundan sonra – mərkəzlər) vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən *mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət qurumları)* əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, *dövlət qurumlarının* informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.[23]

1.2. Dövlət Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Dövlət Agentliyi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Dövlət Agentliyi öz fəaliyyətini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəffaflıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında qurur.

1.5. Dövlət Agentliyi müstəqil balansa, sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.6. Dövlət Agentliyinin saxlanması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Dövlət Agentliyi Bakı şəhərində yerləşir.

### 2. Dövlət Agentliyinin fəaliyyət istiqamətləri

2.1. Dövlət Agentliyinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. mərkəzlərin vahid şəkildə idarə edilməsini, həmin mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumlarının* əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir;[24]

2.1.2. mərkəzlərdə göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri

əsasında həyata keçirilməsinə nəzarət edir;

2.1.3. mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələrin aparılmasını təmin edir;

2.1.4. mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumlarının* əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarət edir;

2.1.5. mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumlarının* əməkdaşları üçün etik kursların təşkilini, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin edir;

2.1.6. *"ASAN xidmət indeksi"ni təşkil edən parametrləri rəhbər tutmaqla, dövlət xidmətlərinin qiymətləndirilməsini həyata keçirir, habelə dövlət qurumları* tərəfindən xidmətlərin həyata keçirilməsində sosial innovasiyaların tətbiqi ilə bağlı araşdırmalar aparır;[25]

2.1.7. *dövlət qurumları* tərəfindən göstərilən hər bir xidməti təhlil edərək, onların elektron formada həyata keçirilməsi üçün müvafiq proqram təminatının, informasiya sistemlərinin, məlumat bazalarının və elektron xidmətlər reyestrinin yaradılması və təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirir.

### 3. Dövlət Agentliyinin vəzifələri

3.1. Dövlət Agentliyi bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. mərkəzlərin fəaliyyətinin təşkilini, onların vahid şəkildə idarə edilməsini, həmin mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumlarının* əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək;

3.1.2. mərkəzlərdə xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında, yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq bütün vətəndaşlar üçün və təqvimin bütün günlərində həyata keçirilməsinə nəzarəti təmin etmək;

3.1.3. mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələr aparmaq;

3.1.4. mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumları* əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarəti həyata keçirmək;

3.1.5. nəzarət və qiymətləndirmənin nəticələri barədə müvafiq arayış və hesabatlar hazırlamaq, aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq *dövlət qurumlarına* icrası məcburi olan tövsiyələr təqdim etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;[26]

3.1.6. mərkəzlərdə fəaliyyət göstərən *dövlət qurumlarının* əməkdaşları üçün etik kursların təşkilini, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin etmək;

3.1.7. vətəndaşlara xidmət göstərən vahid telefon nömrəsi ilə təchiz edilmiş "Çağrı" mərkəzini yaratmaq və onun fəaliyyətini təmin etmək;

3.1.7-1. mərkəzlərdə göstərilən xidmətlərin *səyyar formada göstərilməsinin təşkili qaydalarını müəyyən etmək və* səyyar formada təşkilini həyata keçirmək, *səyyar xidmətdən daxil olan vəsaitin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına yönəldilən hissəsini müəyyən etmək;*[27]

3.1.7-2. Dövlət Agentliyinin və digər dövlət orqanlarının mərkəzlərdə fəaliyyət göstərən işçilərini vahid geyimlə təmin etmək;[28]

*3.1.7-3. mərkəzlərdə xüsusi notariusların fəaliyyətinin təşkili ilə bağlı müqavilələr bağlamaq və xüsusi notariuslar tərəfindən tutulan haqların Dövlət Agentliyinin xüsusi hesabına köçürülən hissəsini müəyyən etmək;*[29]

3.1.8. mərkəzlərin fəaliyyəti barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə təbliğat və təşviqatı təmin etmək;

3.1.9. beynəlxalq təşkilatlar və xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq və təcrübə mübadiləsi aparmaq;

3.1.10. *dövlət qurumları* tərəfindən həyata keçirilən xidmətlərin elektron formada təşkili və təkmilləşdirilməsi məqsədi ilə aşağıdakıları həyata keçirir:

3.1.10.1. *dövlət qurumlarının* malik olduqları informasiya sistemləri ilə tanış olmaq, göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı aidiyyəti *qurumlarla* birgə tədbirlər görmək;[30]

3.1.10.2. elektron xidmətlərin göstərilməsi üzrə texniki normaların, standartların və tələblərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.10.3. *dövlət qurumlarında* elektron xidmətlərin təşkili və göstərilməsi*, habelə dövlət qurumlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti* üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq; [31]

3.1.10.4. elektron xidmətlərin göstərilməsi üzrə *dövlət qurumlarına* metodik və əməli köməklik göstərmək;

3.1.10.5. *dövlət qurumlarının* elektron xidmətləri barədə vətəndaşlardan daxil olan irad və təklifləri təhlil edərək aidiyyəti *dövlət qurumlarına* məlumat göndərmək;

3.1.11. informasiya sistemləri, məlumat bazaları və elektron xidmətlərlə bağlı *dövlət qurumları* tərəfindən təqdim olunan layihələrə, onların texniki və səmərəliliyi baxımından məqsədəuyğunluğu barədə rəy vermək;

*3.1.11-1. dövlət qurumları tərəfindən dövlət informasiya ehtiyatları və sistemlərinin "Hökumət buludu"nda formalaşdırılması, aparılması və təkmilləşdirilməsi, o cümlədən elektron xidmətlərin təşkili və göstərilməsi ilə bağlı dəstək tədbirləri görmək;*[32]

3.1.12. *dövlət qurumlarının* informasiya sistemlərinin, elektron xidmətlərin və elektron xidmətlər reyestrinin yaradılması və onların fəaliyyətinin təhlükəsizliyi ilə bağlı tədbirlər görmək;

*3.1.12-1. "Elektron hökumət" portalının operatorunun rəyinə və əsaslandırılmış tələbinə uyğun olaraq portala qoşulmaq üçün müəyyən edilmiş texniki tələblərə cavab verməyən elektron xidmətlərlə, informasiya sistemləri və ehtiyatları ilə bağlı zəruri texniki tədbirlər və təkmilləşdirmələr aparmaq;*[33]

*3.1.12-2. operatoru olduğu informasiya sistemlərinin təşkilini, idarə olunmasını və inkişafını təmin etmək, bu fəaliyyəti dövlət–özəl tərəfdaşlığı prinsipinə uyğun olaraq özəl investisiyaların cəlb edilməsi yolu ilə həyata keçirdikdə, əldə olunan vəsaitin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və maddi-texniki təminatın yaxşılaşdırılmasına yönəldilməsi üçün Dövlət Agentliyinin xüsusi hesabına köçürülən hissəsini müəyyənləşdirmək;*[34]

3.1.13. *dövlət qurumları* tərəfindən xidmətlərin göstərilməsi prosedurunun (tələb olunan sənədlər və müddətlərlə bağlı) sadələşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

3.1.14. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyaları həmin saytda yerləşdirmək və onun daimi yeniləşdirilməsini təmin etmək;

3.1.15. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək və müvafiq tədbirlər görmək;

3.1.16. fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsində iştirak etmək;

3.1.18. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.19. fəaliyyət istiqamətlərinə uyğun olaraq insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.20. müvafiq sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar, mərkəzlərdə göstərilən xidmətlərə görə daxil olan vəsait və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.21. qanuna uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini görmək;

*3.1.22. "ABAD" publik hüquqi şəxsə münasibətdə təsisçinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini həyata keçirmək.*[35]

## 4. Agentliyin hüquqları

4.1. Dövlət Agentliyi öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. mərkəzlərdə həyata keçirilən xidmətlərin qiymətləndirilməsi məqsədi ilə hər bir xidmət üzrə monitorinq aparmaq;

4.1.2. mərkəzlərdə fəaliyyət göstərəcək *dövlət qurumları* nümayəndələrinin təyinatı zamanı onların nəzakətlilik, məsuliyyət, ünsiyyət qurmaq və izah etmə bacarıqlarına dair aidiyyəti orqanlara rəy bildirmək və barəsində müsbət rəy bildirilməyən şəxslərin həmin mərkəzlərdə fəaliyyətinə icazə verməmək;

4.1.3. *dövlət qurumlarının* malik olduqları informasiya sistemlərinə çıxış əldə etmək, *dövlət qurumları* tərəfindən göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq proqram təminatını hazırlamaq məqsədi ilə həmin orqanların xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək;

4.1.4. elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi kimi çıxış etmək;

4.1.5. vəzifələrinin icrası zamanı dövlət *qurumlarından dövlət xidmətlərinin, o cümlədən* elektron xidmətlərin göstərilməsinin cari vəziyyəti, görülən işlər barədə arayışlar, hesabatlar almaq, müxtəlif sorğular göndərmək, həmçinin bilavasitə yerində baxış *və rəy sorğuları* keçirmək;[36]

4.1.6. *dövlət qurumlarında* elektron xidmətlərin təşkilində istifadə olunacaq informasiya sistemlərinin yaradılması zamanı onların təsdiq olunmuş layihələrə, texniki normalara, standartlara və tələblərə uyğun həyata keçirilməsinə nəzarət etmək və istismara qəbulunda bilavasitə iştirak etmək;

4.1.7. *dövlət qurumlarının* informasiya sistemləri arasında informasiya mübadiləsinin həyata keçirilməsi məqsədi ilə yaradılmış infrastruktura qoşulmaları üçün *dövlət qurumlarına* təkliflər vermək və onların təmin edilməsinə nəzarət etmək;

4.1.8. elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı *dövlət qurumlarının* təkliflərini toplamaq, onları təhlil etmək və rəy vermək;

4.1.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.10. layihələrin dövlət büdcəsindən maliyyələşdirilməsi ilə əlaqədar təkliflər vermək, fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunla müəyyən edilmiş qaydada müsabiqə və tenderlər təşkil etmək;

4.1.11. fəaliyyət istiqamətlərinə aid olan məsələlərin tədqiqi və həlli üçün elmi tədqiqat və təcrübi-mühəndis işlərinin görülməsi, texniki ekspertizaların aparılması və məsləhət xidmətlərinin göstərilməsi üçün qanunvericiliklə müəyyən olunmuş qaydada elmi-tədqiqat və təhsil müəssisələrini, şirkətləri, müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək, onlarla müqavilələr bağlamaq, işçi qruplar, komissiyalar, elmi-texniki şura yaratmaq;

4.1.12. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üçün müvafiq beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq təşkilatları ilə işgüzar əlaqələr yaratmaq;

4.1.13. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.14. müvafiq sahə üzrə analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.15. fəaliyyət istiqamətləri üzrə təlimlər, seminarlar, elmi-praktiki konfrans və simpoziumlar keçirmək, habelə xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.16. qanunla nəzərdə tutulmuş hallarda müsabiqə keçirmək, müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək.

## 5. Dövlət Agentliyinin fəaliyyətinin təşkili

5.1. Dövlət Agentliyinin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Dövlət Agentliyinin vahid sistemini təşkil edir. Dövlət Agentliyi öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Dövlət Agentliyinin strukturu və işçilərinin say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.[37]

5.3. Dövlət Agentliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Dövlət Agentliyinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır və Azərbaycan Respublikasının Prezidenti qarşısında hesabatlıdır.

5.4. Dövlət Agentliyinin sədrinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və müavini vardır. Sədrin müavinləri onlara sədr tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Dövlət Agentliyinin sədri:

5.5.1. Dövlət Agentliyinin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. Dövlət Agentliyinin işçilərini (sədrin müavinləri istisna olmaqla) vəzifələrə təyin və vəzifələrdən azad edir;

5.5.3. Dövlət Agentliyinin aparatının strukturunu müəyyən edir, struktur bölmələrinin və tabeliyində olan digər qurumların əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.8-ci bəndində Dövlət Agentliyinin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4 müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Dövlət Agentliyinin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.5. Dövlət Agentliyinin işçilərinin qanunla nəzərdə tutulmuş qaydada həvəsləndirməsi və intizam tədbirlərinə cəlb edilməsi üçün tədbirlər görür;

5.5.6. mərkəzlərin yaradılması barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir;

5.5.7. icrası məcburi olan əmr və sərəncamlar verir;

5.5.8. Dövlət Agentliyinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Dövlət Agentliyinin aparatının və digər qurumlarının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.5.10. Dövlət Agentliyinin xərclər smetasına uyğun olaraq, xərc maddələri üzrə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsinə sərəncam verir;

5.5.11. Dövlət Agentliyinin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə dair qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.12. Dövlət Agentliyinin fəaliyyət istiqamətləri ilə bağlı *dövlət qurumlarına* müvafiq arayışlar və məlumatlar təqdim edir;

5.5.13. işçilərin attestasiyası *(dövlət qulluqçuları istisna olmaqla)*, ixtisasının artırılması və onların peşə hazırlığının təmin edilməsi üçün müvafiq tədbirlər görür;[38]

5.5.14. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumları ilə münasibətlərdə Dövlət Agentliyini təmsil edir, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.15. Dövlət Agentliyinin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.16. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.5.17. dövlət büdcəsindən ayrılmış vəsait və ştat sayı hüdudlarında, müəyyən olunmuş qaydada Dövlət Agentliyinin tabeliyində olan digər qurumların yaradılması, yenidən təşkili və ləğvi barədə müvafiq qərarlar qəbul edir;

5.5.18. dövlət büdcəsindən ayrılan vəsaitlərin, büdcədənkənar xüsusi vəsaitlərin sərəncamçısı olmaqla, maliyyə vəsaitini Dövlət Agentliyinin tabeliyində olan digər qurumlar arasında bölüşdürür, ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla Dövlət Agentliyinin və mərkəzlərdə fəaliyyət göstərən digər dövlət orqanlarının işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.18-1. Dövlət Agentliyinin və digər dövlət orqanlarının mərkəzlərdə fəaliyyət göstərən işçilərinin vahid geyimlərinin təsvirini və daşınması qaydasını təsdiq edir;[39]

5.5.19. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsini təmin edir;

5.5.20. Dövlət Agentliyinin sədri vəzifələrinin müvəqqəti olaraq icrasını birinci müavininə tapşıra bilər.

5.6. Dövlət Agentliyində sədrdən (kollegiyanın sədri), onun müavinlərindən, Dövlət Agentliyinin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Dövlət Agentliyinin kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.

5.7. Kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

5.8. Kollegiyanın iclaslarında Dövlət Agentliyinin fəaliyyətinin əsas istiqamətləri, icra intizamının vəziyyəti, kadr məsələləri, normativ hüquqi aktların layihələri müzakirə olunur, digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar qəbul edilir.

5.9. Dövlət Agentliyinin kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.9.1. Dövlət Agentliyi ilə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.9.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Dövlət Agentliyinə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.9.3. bir neçə *qurumun* fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar; [40]

5.9.4. müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.9.5. sədrin təşəbbüsü ilə Dövlət Agentliyinin kollegiyasının müzakirəsinə çıxarılan, bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.9.6. bu Əsasnamənin 5.9.1–5.9.5-ci yarımbəndlərinə uyğun olaraq Dövlət Agentliyinin kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi.

5.10. Dövlət Agentliyinin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Dövlət Agentliyinin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Dövlət Agentliyinin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.11. Kollegiyanın iş qaydasını sədr müəyyənləşdirir və iclasları sədr tərəfindən mütəmadi olaraq çağırılır.

5.12. Dövlət Agentliyinin kollegiyasının üzvləri və sədr arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verərək öz qərarını həyata keçirir. Dövlət Agentliyinin kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərlər.

5.13. Dövlət Agentliyinin kollegiyasının iclaslarına digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

Azərbaycan Respublikası Prezidentinin
2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Əlavə 2**

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin**

**S T R U K T U R U**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparatı (şöbələr və sektorlar).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri.

Azərbaycan Respublikası Prezidentinin
2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Əlavə 3**

**"ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları**

**1. Ümumi müddəalar**

1.1. "ASAN xidmət" mərkəzləri (bundan sonra - mərkəzlər) Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (bundan sonra – Dövlət Agentliyi) tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır.

1.2. "ASAN xidmət" mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.

1.3. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

1.4. Mərkəzlər öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

**2. Mərkəzlərin fəaliyyətinin məqsədləri**

2.1. "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır.

2.2. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin məqsədləri aşağıdakılardır:

2.2.1. vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması;
2.2.2. vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması;
2.2.3. peşəkarlıq səviyyəsinin artırılması;
2.2.4. dövlət strukturlarına etimadın daha da gücləndirilməsi;
2.2.5. şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi;
2.2.6. elektron xidmətlərdən daha geniş istifadə olunması;
2.2.7. bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılması.

### 3. Mərkəzlərin fəaliyyətinin təşkili

3.1. Mərkəzlərin strukturu və işçilərinin say tərkibi Dövlət Agentliyinin sədri tərəfindən müəyyən edilir.
3.2. Mərkəzlərin fəaliyyəti aşağıdakı qaydada təşkil edilir:
3.2.1. vətəndaş mərkəzə daxil olaraq məlumat köşkündən əldə etmək istədiyi sənəd üçün hansı şöbəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir və həmin şöbənin pəncərəsində elektron növbə əsasında gözləyir.
Növbə çatdıqda xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri təqdim edə və əldə etmək istədiyi sənədi qanunla müəyyən edilmiş müddətlərdə götürə bilər;
3.2.2. mərkəzlərdə vətəndaşların məlumat əldə etməsini asanlaşdırmaq məqsədi ilə elektron lövhələr və işarələr yerləşdirilməlidir;
3.2.3. mərkəzlərdə xidmətlər qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlar üçün həyata keçirilməli və təqvimin bütün günlərində fasiləsiz vətəndaşlara açıq olmalıdır;
~~3.2.4. mərkəzlər vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlərə (uşaq əyləncə mərkəzi, internet-kafe, bank, poçt şöbələri və s.) malik olmalıdır;~~ [41]
3.2.5. mərkəzlərdə göstərilən bütün xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməli və müasir informasiya texnologiyalarından geniş istifadə edilməlidir;
3.2.6. xidmət üçün qanunla müəyyən edilmiş ödənişlər bank şöbələri, ödəmə nöqtələri və ya internet vasitəsilə ödənilməlidir.
3.3. Mərkəzlərdə şəffaflığın təmin edilməsi, qiymətləndirmənin aparılması məqsədi ilə xidmət aparılan otaqların divarları şəffaf, görünən materiallardan olmalı, hər bir xidməti pəncərələrdə xidmət proseduru fasiləsiz olaraq videokamera vasitəsilə qeydiyyata alınmalıdır.
3.4. Dövlət Agentliyinin və digər dövlət orqanlarının mərkəzlərdə fəaliyyət göstərən işçilərinin vahid geyimlərinin təsvirini Dövlət Agentliyinin sədri təsdiq edir.[42]

### 4. Mərkəzlərdə xidmətlər və onların göstərilməsi qaydaları

4.1. "ASAN xidmət" mərkəzlərində xidmətlər aşağıdakı istiqamətlərə bölünür:
4.1.1. birbaşa (yerində) xidmət;
4.1.2. özünəxidmət;
4.1.3. "Çağrı" mərkəzi;
4.1.4. səyyar xidmətlər.
4.2. Birbaşa xidmət vətəndaşa "ASAN xidmət" mərkəzində müraciət etdiyi dövlət orqanı tərəfindən bilavasitə xidmət göstərilməsidir.
4.3. Özünəxidmət dedikdə mərkəzdə daim internetə açıq olan kompyuterlər vasitəsilə vətəndaşların bütün növ elektron xidmətlərdən yararlana bilmək imkanı nəzərdə tutulur.
4.4. "Çağrı" mərkəzləri vasitəsilə vətəndaş mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta, mərkəzin fəaliyyəti ilə bağlı təkliflərini bildirə bilər. "Çağrı" mərkəzi eyni zamanda videoqəbul vasitəsilə vətəndaşlara informasiya xidmətini həyata keçirir.
4.5. Səyyar xidmətlər dedikdə şəxs qanunla nəzərdə tutulmuş qaydada əlavə ödəniş aparılmaqla onun iş və ya yaşayış yerini, habelə olduğu yeri tərk etmədən xidmətlərdən yararlanması nəzərdə tutulur. Yəni, xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədlər və xidmətin nəticəsi olaraq şəxsə verilməli olan sənədlər onun yaşayış və ya iş yerində, habelə olduğu yerdə təhvil götürülə və təhvil verilə bilər.[43]
Səyyar xidmətlər kənardan qulluğa və yardıma ehtiyacı olan *əlilliyi olan şəxslər*~~, o cümlədən sağlamlıq imkanları~~ ~~*məhdud 18 yaşınadək* uşaqlar~~ üçün əlavə ödəniş aparılmadan həyata keçirilir.[44]
4.6. "ASAN xidmət" mərkəzlərində aşağıdakı funksional yardımçı xidmətlər həyata keçirilir:
4.6.1. bank xidmətləri:
4.6.1.1. cari bank hesablarının açılması;
4.6.1.2. valyuta mübadiləsi;
4.6.1.3. "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərlə bağlı dövlət rüsumlarının və xidmət haqlarının qəbulu;
4.6.1.4. inzibati xətalara dair cərimələrin qəbulu;
4.6.2. sığorta xidmətləri:
4.6.2.1. avtomobillərin sığortası;
4.6.2.2. daşınmaz əmlakın sığortası;
4.6.3. hüquqi yardım xidmətləri:
4.6.3.1. hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar və arayışlar verilməsi;
4.6.3.2. məhkəmələrə iddia ərizələrinin verilməsi ilə bağlı hüquqi yardım göstərilməsi;

4.6.3.3. ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsi;
4.6.3.4. vətəndaşların müraciəti əsasında digər növ hüquqi yardım göstərilməsi;
4.6.4. bütün növ sənədlərin dövlət dilinə və ya dövlət dilindən digərinə tərcümə edilməsi ilə bağlı xidmətlər;
4.6.5. tibb xidmətləri:
4.6.5.1. tibbi arayışların verilməsi;
4.6.5.2. ilkin tibbi yardım göstərilməsi;
4.6.6. rəsmi internet informasiya ehtiyatı vasitəsi ilə göstərilən xidmətlər:
4.6.6.1. real vaxt rejimində növbənin tutulması;
4.6.6.2. vətəndaş müraciətlərinin real vaxt rejimində qəbulu və cavablandırılması;
4.6.6.3. "Asan xidmət" mərkəzlərində göstərilən bütün xidmətlər üzrə vətəndaşların məlumatlandırılması;
